# BİZNES - Visa Məlumat Vərəqi

*Xahiş edirik, viza müraciətinizi* online qaydada *doldurasınız. Viza müraciəti online qaydada doldurulubsa, viza üçün görüşlər yalnız* online *qaydada təyin oluna bilər. Daha ətraflı məlumat üçün 3-cü səhifəyə baxın.*

## Viza şöbəsinə aşağıdakı sənədlər təqdim olunmalıdır:

☐ Lazımi qaydada online və ya əllə doldurulmuş və imzalanmış (azyaşlı üçün hər iki valideynin imzası ilə) ərizə forması

☐ Planlaşdırılmış səfərə azı 3 ay qalmış qüvvədə olan, son 10 ildə təqdim olunmuş və ən azı 2 boş səhifəsi olan orijinal pasport VƏ pasportun surəti (imzanı və şəxsiyyəti təsdiq edən məlumatlar səhifəsi), həmçinin əvvəlki Şengen vizalarının və giriş/çıxış möhürlərinin surəti

☐ Təlimatlara uyğun olaraq ağ fonda olan 2 yeni foto (ərizə formasına yapışdırmayın)

☐ Əgər dəvət edən tərəf qəbul etmirsə: qalacağınız yeri təsdiq edən sənəd: oteldən vizaya müraciət edən şəxsin adı və soyadını, qalma müddətini, otelin əlaqə detallarını və qalınacaq müddətin otaq qiymətlərini dəqiq göstərən vauçer və ya rezervasiya

☐ Uçuş və ya səyahət rezervasiyası, yaxud nəzərdə tutulan digər nəqliyyatın təsdiqi. Gediş-dönüş bronu. Əgər vizaya müraciət zamanı ödənilmiş bilet təqdim olunarsa, vizaya imtina halında səfirlik heç bir məsuliyyət daşımır.

☐ Səyahət qəza/tibbi sığortanın orijinalı və surəti: minimum 30 000 Avro və ya 50 000 ABŞ dollar dəyərində olmaqla bütün səfər müddətini əhatə etməli, bütün Şengen ölkələri üçün qüvvədə olmalı, qüvvədə olma müddətinə əlavə 15 gün daxil olmalıdır (orijinal və ya surət). Sığortaya Covid-19-a aid minimum əhatəni nəzərdə tutan müalicə xərcləri də daxil olmalıdır (30 000 Avro və ya 50 000 ABŞ dolları). Tələbi nəzərə alaraq səyahət qəza/tibbi sığortanın bu şərtlərə cavab verib-vermədiyini sığorta şirkəti ilə dəqiqləşdirin

☐ Ödəmə qabilyyətinin təsdiqi: son 3 ay üçün bank hesabından çıxarış, son üç ay üçün maaş ödənişi siyahısını göstərən bank hesabından çıxarış, və/və ya daşınmaz əmlak haqqında şəhadətnamənin və ya daimi gəlir gətirən digər aktivlərin surəti; təqaüdün təsdiqi; digər daimi gəliri təsdiq edən sənəd

☐ İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə ilə nikah haqqında şəhadətnamənin orijinalı və surəti (əgər varsa)

*Azyaşlılar (18 yaşdan aşağı): İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə ilə doğum haqqında şəhadətnamənin orijinalı və surəti; Valideynin və ya hüquqi qəyyumunun notarial qaydada razılığı a) əgər azyaşlı tək və ya valideynlərdən biri ilə səyahət edirsə; b) əgər azyaşlı hüquqi qəyyum olmadan səyahət edirsə; c) əgər azyaşlı hüquqi qəyyumlardan biri ilə səyahət edirsə*

☐ İşəgötürənin rəsmi blankında möhür, imza, tarix, ünvan, şirkətin şəhər telefonu dəqiq göstərilməklə iş yerindən arayış (İngilis dilində, və ya ingilis dilinə tərcümə olunmaqla Azərbaycan dilində); imzalayan rəsmi şəxsin adı və vəzifəsi, işçinin adı, vəzifəsi, əmək haqqı, işlədiyi müddət, planlaşdırılan müddəti və məqsədi göstərən işgüzar səfərin təsdiqi.

*Şirkət sahibləri dövlət qeydiyyatının orijinalı və ya dövlət qeydiyyatının (dövlət reyestrindən çıxarış) notarial qaydada təsdiq olunmuş surətini və Vergi Ödəyicisinin İdentifikasiya Nömrəsini (VÖEN), həmçinin vergi ödəmələri barədə sənədin surətini təqdim etməlidir.*
*Tələbələr: Universitetdə oxumaları barədə təsdiq*

☐ İsveçrə və ya Lixtenşteyndə ev sahibliyi edən qurumdan (hüquqi şəxs, şirkət və ya təşkilat) aşağıdakı məlumatı da əhatə edən yazılı xahiş:

- ☐ Ev sahibliyi edən qurumun tam ünvanı və əlaqə saxlayan şəxs (elektron poçtu və telefon nömrələri də daxil olmaqla)
- ☐ Dəvət məktubunu imzalayan şəxsin adı və vəzifəsi (ticarət reyestrinə görə imza hüququ)
- ☐ Dəvət olunan şəxsin bütün məlumatları (soyadı, adı, doğum tarixi, ünvanı, elektron poçt ünvanı və vətəndaşlığı)
- ☐ Səfərin məqsədi və planlaşdırılan qalma müddəti
- ☐ Ev sahibliyi edən şəxs və ya qurum müraciət edən şəxsin səfər və qalmaq xərclərini ödəyəcəksə, həmin şəxsin və ya qurumun göstərilməsi.

☐ İsveçrədəki şirkətlər: kantonal ticarət reyestrindən çıxarışın dəvət məktubuna qoşulmuş surəti (Zefix-dən sərbəst yükləmə).

*Dəvət məktubu: bu barədə əlavə məlumat almaq və nümunə əldə etmək üçün bu məlumat vərəqinə baxın: Factsheet on letter of invitation (dəvət məktubu haqqında məlumat vərəqi) (PDF, 119 kB, 13.07.2020)*

***Dəvət məktubunu Səfirliyə qabaqcadan və ya elektron poçt və ya adi poçtla paralel olaraq göndərmək lazım deyil. Səfirliyə elektron poçt və ya adi poçtla göndərilmiş dəvət məktubları qeydə alınmayacaq, və ya qorunub saxlanılmayacaq.***

☐ Azərbaycanda qeydiyyata alınmış dəvət olunmuş hüquqi şəxsin təqdim edəcəyi məlumat: Qeydiyyat şəhadətnaməsinin (dövlət reyestrindən çıxarış) surəti və Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi (VÖEN).

Rəsmi hüquqi şəxs haqqında möhürlənmiş, imzalanmış və aşağıdakı məlumatı əks etdirən sənəd: tam ünvan və əlaqə saxlanılan şəxs; imzalayan şəxsin ad və vəzifəsi; işçinin adı, vəzifəsi, maaşı və işlədiyi müddət *[uyğun olarsa];* əmək müqaviləsinin növü; müraciət edən şəxsin səfər və yaşayış xərclərini qarşılayacaq şəxs və ya hüquqi şəxs

☐ Azərbaycanda yaşayan qeyri-Azərbaycan vətəndaşları: əcnəbiyə və ya vətəndaşlığı olmayan şəxsə verilmiş Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayış hüququ və Dövlət Miqrasiya Xidmətindən bununla bağlı verilmiş kartın orijinalı və ya surəti. Bu icazə Üzv Ölkənin ərazisini tərk edəndən sonra 3 ay ərzində qüvvədə olmalıdır.

| |
|---|
| Səfirlik müraciətin ilkin yoxlanışından sonra əlavə sənədlər tələb etmək hüququnu qoruyub saxlayır |

**Digər vacib məlumatlar üçün səhifə 3-ə baxın**

# Digər vacib məlumatlar:

## Online ərizə
Ərizə formasını PDF formatında yüklədikdən sonra ərizə prosesini tam yekunlaşdırdığınıza əmin olun.

Əgər siz Şengen ərazisində birdən artıq oteldə qalmaq niyyətindəsinizsə, lütfən, "+" düyməsini basmaqla bütün otelləri əlavə edin.

## Baxılma müddəti / Pasportun qaytarılması
Vizaya müraciət planlaşdırılan səfərdən azı 15 təqvim günü əvvəl təqdim olunmalıdır; sənədlər planlaşdırılan səfərdən 6 ay əvvəl də təqdim oluna bilər.

Sənədləri qəbul etdikdən sonra viza əməkdaşı sizə pasportun götürülmə tarixini bildirəcək.

## Viza müraciəti üçün görüş
Əgər online görüş götürmək üçün boş yer yoxdursa, lütfən, bu ünvana e-mail yazın: baku.visa@eda.admin.ch və Səfirliyin saytında göstərilən məlumatları təqdim edin.

Viza bölməsi ehtiyac duyduğu formada görüşləri yenidən təyin etmək hüququnu qoruyub saxlayır. Odur ki, lütfən, elektron poçt hesabınızı, həmçinin spam qovluğunu müntəzəm yoxlayın.

## Rüsum
Hazırki viza rüsumunun məbləğini müəyyən etmək üçün Səfirliyin saytına baxın. Viza rüsumunu sənədlərin təqdimatı zamanı AZN ilə nağd şəkildə ödəyə bilərsiniz. Kredit kartı ilə terminal vasitəsi ilə ödəniş planlaşdırılır, lakin hələ icra olunmur.

## Viza bölməsinin iş saatları
Viza müraciəti: bazar ertəsindən cümə axşamına qədər saat 09:00-dan 12:00-a qədər (yalnız görüş təyin olunmaqla). Pasportun götürülmə vaxtı: bazar ertəsindən cümə axşamına qədər: 14:00 – 15:00 (görüş vaxtı almağa ehtiyac yoxdur).

## Qrup müraciətləri
6 və daha çox şəxsdən ibarət qrupların online görüş almadan birbaşa elektron-poçt vasitəsilə səfirliklə əlaqə saxlaması xahiş olunur.

## Digər
- Viza ilə bağlı əlavə məlumatları Səfirliyin saytından əldə edə bilərsiniz.
- Səfirlik kənar agentliklər və ya xidmət təqdim edənlərlə əməkdaşlıq etmir.
- Bu sənəd ödənişsizdir.